# **Nəzarət-kassa aparatlarının** əhatə dairəsi genişləndirilir, **tibbi xidmətlər sahəsində isə "ƏDV geri al"** mexanizmi tətbiq edilir




Qanunvericiliyə edilmiş dəyişikliklərdən biri də nəzarət-kassa aparatlarının (NKA) tətbiq dairəsinin genişləndirilməsi ilə bağlıdır. Belə ki, pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə yanaşı, yerləşmə vasitələri hesab edilən mehmanxana (hotel) və mehmanxana tipli digər obyektlər, tibb müəssisələri və bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər (sabit vergi ödəyiciləri istisna olmaqla) tərəfindən göstərilən xidmətlər üzrə pul hesablaşmaları vergi orqanının elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı vasitəsilə həyata keçiriləcək. Dəyişiklik "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması və gəlirlərin leqallaşdırılması, habelə həmin fəaliyyət sahələri üzrə vergi münasibətlərində şəffaflığın təmin edilməsi məqsədi daşıyır. Yeni nəsil NKA-ların tətbiq dairəsinin genişləndirilməsi, öz növbəsində "ƏDV gerial" layihəsinə də müsbət təsir göstərəcək. Bu il qanunvericiliyə edilmiş dəyişikliklərdə ƏDV-nin qaytarılması mexanizmi tibbi xidmətlərə də aid edilib. Tibb müəssisələri tərəfindən göstərilən xidmətlər sahəsində dövriyyələrin şəffaflaşdırılması və bu prosesdə vətəndaşların birbaşa iştirakı məqsədilə pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti ilə yanaşı, tibbi xidmətlərin göstərilməsi sahəsində də "ƏDV gerial" mexanizmi tətbiq olunub.